Sistemlər nəzəriyyəsində sistem dedikdə vahid məsələnin həlli üçün nəzərdə tutulmuş elementlərin öz aralarındakı qarşılıqlı rabitələr və təsirlər kompleksi başa düşülür. Məqsədli təyinatına görə baxılan sistemi aşağıdakı siniflərə ayırmaq olar (şəkil 1).



Şəkil 1. Sistemin siniflərə bölünməsi

Sistemin siniflərinin müntəzəm olaraq düzgün fəaliyyət göstərməsi üçün qazıma briqadasına rəhbərlik edən buruq ustası və müəssisənin digər mühəndis-texniki heyəti daimi əlaqədə olmalı, bütün çatışmazlıqlar vaxtında aradan qaldırılmalıdır.

Məsələnin həlli. Operator quyu ilə maşın vasitəsilə daimi təmasda olduğundan, belə qarşılıqlı təsiri aşağıdakı sxemlə təsvir edə bilərik (şəkil 2).



Şəkil 2. OMQ sisteminin sadə modeli

Sistemin hər bir elementini multiqraflar şəklində təsvir etmək mümkündür. Operator quyuda davam edən proseslərə nəzarət edərək maşın vasitəsilə quyunun qazılması prosesini həyata keçirir, quyudan alınan məlumatlar əsasında maşına təsir edir. Göründüyü kimi, bu üç element daim bir-birilə rabitədə olur, prosesin normal davam etməsi üçün uzlaşma yerinə yetirilir.

Multiqrafın ayrı-ayrı zirvələrinə nəzər salaq.

Operator (qazımaçı) fəaliyyəti «O»

İstər qazıma, istərsə də aləti quyuya endirib-qaldırma əməliyyatı (EQƏ) proseslərində qazıma briqadasının üzvləri istehsalat funksiyalarına görə bir-birilə əlaqələnir, bilavasitə təmasda olur və funksional elementlərlə qarşılıqlı təsirdə olurlar. Ona görə də operator fəaliyyətini aşağıdakı çoxluqla təsvir edirik (şəkil 3):



Şəkil 3.Operator fəaliyyətinin təsviri

O – qazımaçının operator fəaliyyəti; $\mathbf{O_1}$ – buruq ustasının, $\mathbf{O_2}$, $\mathbf{O_3}$, $\mathbf{O_4}$ –uyğun olaraq qazımaçının 1-ci, 2-ci və 3-cü köməkçilərinin və $\mathbf{O_5}$ –dizelçinin fəaliyyəti

Qazıma yaxud EQƏ proseslərində müxtəlif kvalifikasiyalı operatorlar qrupu çalışır və çoxsaylı mexanizmlər və avadanlıqlar öz aralarında dinamiki olaraq dəyişən rejimlə əlaqələnirlər.

Proseslərin tərkib hissələri müəyyən ardıcıllıqla yerinə yetirilir. $\mathbf{O_2 \ldots O_4}$ operatorları obyektdən (maşın və quyu) gələn siqnalları qəbul edir və onları bilavasitə sensomotor orqanların və əzələ sisteminin köməyilə konkret təsir göstərməklə reallaşdırırlar. Bu təsirlər «**O**» ilə razılaşdırılır və son olaraq «**O**» prosesə «**Y**» təsirini edir.

Maşın (**M**) multiqrafı şərti olaraq 7 zirvə şəklində təsvir olunmuşdur (şəkil 4).



Şəkil 4. Maşın multiqrafının zirvələri

«L» - EQƏ sistemi avadanlıqları

EQƏ sistemi avadanlıqları (şəkil 5) aşağıdakı çoxluq kimi nəzərə alınır:

$$\mathbf{L = \{L_1; L_2; L_3\}}$$

burada $\mathbf{L_1}$ – yerdəyişməni, sürətin tənzimlənməsini, qazıma boru kəmərinin və boş elevatorun dayandırılmasını, həmçinin boru kəmərinin tutularaq asılı halda saxlanmasını həyata keçirən mexanizmlərdir.

$$\mathbf{L_1=\{L_{11}; L_{12}; L_{13}\}}$$

$\mathbf{L_{11}}$ – sürətlər qutusu və intiqal aqreqatları, həmçinin lentli və hidravliki (elektrik) əyləc quruluşları ilə təchiz olunmuş qazıma bucurqadı; $\mathbf{L_{12}}$ **-** avtomatik elevatorlu tal sistemi; $\mathbf{L_{13}}$ – rotorda yerləşdirilmiş pnevmatik idarə olunan pazlı tutucu.



Şəkil 5. EQƏ sistemi avadanlıqları

$\mathbf{L_2}$ – ayrı-ayrı şamların tutulmasını, qaldırılmasını və yerləşdirilməsini təmin edən mexanizmlər:

$$\mathbf{L_2=\{L_{21}; L_{22}; L_{23}\}}$$

$\mathbf{L_{21}}$ – şamı tutan mexanizm (ŞTM); $\mathbf{L_{22}}$ - şamı qaldıran mexanizm (ŞQM); $\mathbf{L_{23}}$ – şamı yerləşdirən mexanizm (ŞYM);

$\mathbf{L_3}$- qazıma borularının qıfıl birləşmələrinin açılıb-bağlanmasını həyata keçirən mexanizmlər:

$$L_3=\{L_{31};\ L_{32};\ L_{33}\}$$

L_{31} – AKB tipli pnevmatik qazıma açarı; L_{32} – pnevmatik bərkidici; L_{33}- maşın açarları.

«U» – Maşın və avadanlığın hazırlanma şəraiti

Hazırlanma şəraiti aşağıdakı çoxluqla təsvir olunur:

$$U=\{U_1;\ U_2;\ U_3;\ U_4\}$$

burada U_1 – maşınqayırma zavodunun texnoloji avadanlıqlarla təmin olunması; U_2 – hazırlanma prosesinin maddi-texniki təchizatı; U_3 – müəssisənin kadrlarla, mühəndis-texniki və elmi işçilərlə təminatı; U_4 – istehsalatın təşkili (keyfiyyətin idarə olunması prosesi).

«X»- İstismar şəraiti

İstismar şəraiti aşağıdakı çoxluqla təsvir olunur:

$$X=\{X_1;\ X_2;\ X_3;\ X_4\}$$

burada X_1 - quyuya buraxılan kəmərin tipi:

$$X_1=\{X_{11};\ X_{12}\}$$

X_{11} – qazıma kəməri; X_{12} – qoruyucu kəmər;

X_2 – bir qaldırmadakı və ya endirmədəki nisbi kütlə:

$$X_2=\{X_{21};\ X_{22}\}$$

X_{21} – bir qaldırmadakı kütlə; X_{22} – bir endirmədəki kütlə;

X_3 – işin texnoloji variantı:

$$X_3=\{X_{31};\ X_{32}\}$$

X_{31} – əsas işlər; X_{32} – köməkçi işlər;

X_4 – idarəetmənin peşəkarlığı;

X_5 – texniki istismar səviyyəsi;

$$X_5=\{X_{51};\ X_{52}\}$$

$\mathbf{X_{51}}$ – əyləc sistemlərinin tənzimlənməsi; $\mathbf{X_{52}}$ – yeyilmiş elementlərin dəyişdirilməsi:

$$\mathbf{X_{52}=\{X_{521}; X_{522}; X_{523}; X_{524}; X_{525}; X_{526}\}},$$

$\mathbf{X_{521}}$ – əyləc kündələri; $\mathbf{X_{522}}$ – tal kanatı; $\mathbf{X_{523}}$ – ŞPM-in elementləri; X_{524} – açarların plaşkaları; X_{525} – qazıma baltaları; X_{526} – tutucu paz plaşkaları

İdarəetmə təsiri - «Y»

EQƏ sistemi üçün çıxış siqnalları giriş siqnallarını idarə etmək nəticəsində əldə olunur. Bu siqnallar çevrilmiş şəkildə, idarə olunan obyektə daxil olaraq onun vəziyyətini dəyişdirməyə məcbur edir.

İdarəetmə təsiri aşağıdakı çoxluqla təsvir olunur:

$$\mathbf{Y = \{ Y_1; Y_2; Y_3; Y_4; Y_5; Y_6 \}}$$

burada $\mathbf{Y_1}$-**″O″** operatorunun bucurqad mühərriklərinin komanda kontrollerinə etdiyi təsir (dizel intiqalında isə yanacaq nasoslarının şturvalına olan təsir); $\mathbf{Y_2}$- qazıma bucurqadı lentli-kündəli əyləcinin (LKƏ) dəstəyinə olan təsir; $\mathbf{Y_3}$ –əməliyyat şinli-pnevmatik muftanın (ŞPM) kranına olan təsir; $\mathbf{Y_4}$ – pazları idarə edən pedala olan təsir; $\mathbf{Y_5}$ – sürətlər qutusuna göstərilən dövri təsir; $\mathbf{Y_6}$-hidravlik (elektromaqnit) əyləcin qoşulub-ayrılması üçün olan təsir.

EQƏ prosesinin xarakteristikaları- «Z»

Bu xarakteristikalar aşağıdakı çoxluqla təsvir olunur:

$$\mathbf{Z= \{Z_1; Z_2; Z_3; Z_4; Z_5\}}$$

burada $\mathbf{Z_1}$ – yüklənmiş elevatorun qalxma anında kəmərin tutulması; $\mathbf{Z_2}$ – boş elevatorun və $\mathbf{Z_3}$ –yüklənmiş elevatorun dayandırılması; $\mathbf{Z_4}$ – boş elevatorun qalxması anında kəmərin tutulması; $\mathbf{Z_5}$ – yüklənmiş elevatorun endirilməsi.

Maşının və onun elementlərinin vəziyyəti - «N»

Bu zirvəyə daxil olan elementlər aşağıdakı çoxluqla təsvir edilirlər:

$$\mathbf{N=\{N_1; N_2; N_3; N_4; N_5; N_6; N_7\}}$$

burada $\mathbf{N_1}$ – qazıma vışkasının və EQƏ-nin ayrı-ayrı elementlərinin dayanıqlığı;

$\mathbf{N_2}$ – məsul hissələrin hesabi kəsiklərindəki gərginliklər; $\mathbf{N_3}$ – düyünlərin və hissələrin yeyintiləri; $\mathbf{N_4}$ – hissələrin qızmaları; $\mathbf{N_5}$ – termomexaniki yüklənmə;

$\mathbf{N_6}$ – *EQƏ* sistemi elementlərinin deformasiyaları; $\mathbf{N_7}$ – *EQƏ* sistemi elementlərinin korroziyaya davamlılığı;

Keyfiyyət göstəriciləri – «E»

EQƏ maşın və avadanlıqlarının keyfiyyət göstəriciləri

$$\mathbf{E=\{E_1; E_2; E_3; E_4; E_5; E_6; E_7; E_8; E_9; E_{10}\}}$$

çoxluğu ilə təsvir edilir (şəkil 6).



Şəkil 6. Keyfiyyət göstəricilərinin təsnifatı

Quyu – «Q»

Multiqrafın **Q** zirvəsi aşağıdakı çoxluqları nəzərə alır:

$$Q=\{Q_1; Q_2; Q_3; Q_4; Q_5; Q_6\}$$

burada Q_1 – süxurun xarakteristikası; Q_2 – quyunun dərinliyi və diametri; Q_3, Q_4, Q_5, Q_6- uyğun olaraq qoruyucu kəmərin, yuma mayesinin, qazıma borularının və baltaların xarakteristikalarıdır.

Operator – maşın – quyu sisteminin öyrənilməsinə sistemli yanaşmanın ən vacib prinsipləri aşağıdakılardır:

- Sistemin tam və dəqiq təyinatının, onun məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi. Bu, öz növbəsində ayrı-ayrı məqsədlərin, alt məqsədlərin və məsələlərin tərkibinin və əhəmiyyətinin analizini; onların həyata keçirilməsinin mümkünlüyünü və bunun üçün tələb olunan vəsaitlərin və ehtiyatların müəyyənləşdirilməsini; OMQ sisteminin məqsəd funksiyasının və səmərəlik göstəricilərinin təyinini tələb edir;
- Sistemin strukturunun, hər şeydən əvvəl ona daxil olan komponentlərin tərkibinin, komponentlər arası rabitələrin xarakterinin və sistemin ətraf və quyudaxili mühitlə rəbitələrinin tədqiqi;
- Sistemin, o cümlədən tam halında bütöv qazıma qurğusunun, qurğu daxilində ayrı – ayrı alt sistemlərin fəaliyyət xarakterinin, sistemin müxtəlif mövvcudluq mərhələlərində xüsusiyyətlərinin və funksional dəyişmələrinin ardıcıl öyrənilməsi;
- Layihələndirmə, hazırlanma və istismar mərhələlərində sistemin dinamiki inkişafda olmasının nəzərə alınması.

Yüksək səmərəliyə malik müasir qazıma qurğularının yaradılması üçün OMQ sisteminin əsas xüsusiyyətlərini nəzərə alan yeni sistemli hesablama metodlarının işlənilməsinə zərurət yaranır. Bu metodlar kömpyüter texnologiyasının son nailiyyətlərini nəzərə almaqla yaradılmalı və bununla yanaşı, idarə olunan imitasiya komplekslərini,

elementlərin etibarlığının və yüklənmələrin ehtimal hesablanmalarını nəzərə almalıdır. Belə metodların mahiyyəti ondan ibarət olmalıdır ki, qazıma qurğusuna izolə edilmiş şəkildə deyil, OMQ-nin vahid sisteminin elementi kimi baxılmalıdır.

Sintez məsələsinin həlli zamanı OMQ-nin ümumiləşdirilmiş modeli amillərin müxtəlif qiymətlərini, keyfiyyət meyarlarını və səmərəliyini seçmək üçün, istismar prosesinin baxılan variantlarının modelləşdirilməsi, imitasiya modellərində təcrübələrin planlarının qurulması, reqresiya tənliklərinin xarakteristikalarının hesablanması və s. üçün istifadə olunur.

Hesablamanın sistemli metodları ehtimal xarakteri daşıdığı üçün texniki layihələndirmə mərhələsində tam ölçüdə istifadə oluna bilər.

Qazıma bucurqadının analizi və sintezi məsələlərinin həlli zamanı idarəetmə proseslərinin, EQƏ-nin, yüklənmənin və gərginliklərin dəyişdirilməsinin imitasiya modelləşdirilməsi tətbiq olunur. Analitik hesablama metodlarını daha əvvəlki layihələndirmə mərhələlərində tətbiq etmək məqsədəuyğun sayılmalıdır.

Müasir qazıma qurğularını və qazıma prosesini texniki vasitələrsiz təsəvvür etmək çətindir. Qazıma prosesinin idarə olunması üçün sistemli yanaşma əsasında tərtib olunmuş qarşılıqlı əlaqə sxemi şəkil 7-də təsvir olunmuşdur. Məhz belə bir sistemin köməyilə operator – maşın – quyu əlaqəsi tam gücü ilə fəaliyyət göstərə bilər.

Quyudan və prosesdən alınan məlumatlar bilgilər bazasına daxil olur, elmi əsaslarla emal edilir və sonda qərar şəklində operator vasitəsilə qaldırma kompleksinin (maşının) köməyilə quyuya və prosesə tətbiq olunur. Qərarın düzgünlüyü nəzarət cihazları vasitəsilə yoxlanılır.

Nəticə. Sistemli yanaşmada subyektivliyin aradan qaldırılması və prosesin cari məlumatlara əsaslanaraq idarə olunması təmin olunur. Məhz bu yolla istər qazıma prosesi, istərsə də onun idarə olunması optimallıq meyarları əsasında yerinə yetirilə bilər. Belə olduqda qoyulan gücdən maksimum istifadə olunar ki, bu da avadanlığın sistismarının düzgün aparılmasına və onun xidmət resursundan maksimum dərəcədə istifadə olunmasına imkan yaradır.



Şəkil 5.26. Müasir qazıma prosesinin idarə olunması üçün sistemli yanaşma əsasında tərtib olunmuş qarşılıqlı əlaqə sxemi

ƏDƏBİYYAT

1. **Əliyev Ə.M.** Qazıma qurğusu qaldırma kompleksinin termomexaniki yüklənməsi. – Bakı: Elm, 1998. – 132 s.
2. **Əliyev Ə.M.** Qazıma qurğusunun endirib-qaldırma əməliyyatı avadanlığı üçün ümumiləşdirilmiş model. – Bakı: Elm, 1997. – 28 s.
3. **Əliyev Ə.M.** Endirib-qaldırma əməliyyatı prosesinin metodoloji məsələləri. Azərbaycan Ali Texniki Məktəblərinin xəbərləri. №2, 2001. – S.41-43.
4. **Джанахмедов А.Х.** Физико-стохастическое трибомоделирование. – Баку: Элм, 1988. -152 с.

СОЗДАНИЕ ОБОБЩЕННОЙ МОДЕЛИ ДЛЯ ПОДЪЕМНОГО КОМПЛЕКСА НА ОСНОВЕ СИСТЕМНОГО ПОДХОДА

А.М. АЛИЕВ, М.Н. БАГИРОВА, Л.С. ГАДЖИЕВА

В статье сделана попытка создания буровой установки обобщенной модели для подъемного комплекса на основе системного подхода, рассмотрены вопросы поиска факторов, влияющих на работу комплекса и их учета в ходе процесса. Проанализированы вершины мультиграфа, входящие в состав цепи «оператор – машина – скважина» как системотехнический комплекс.

THE GENERALISED MODEL FOR THE ELEVATING COMPLEX APPLYING THE SYSTEM APPROACH

A.M. ALIYEV, M.N. BAGIROVA, L.S. GADZHIEVA

The paper makes an attempt to analyze the generalized model for the elevating complex of the drilling unit applying the system approach, the factors influencing on the operation of the complex and their importance for the process are considered. The critical points of the multi-graph, covered as a part of the circuit “operator - machine – well” system-technical complex, are analyzed.

QUYULARIN TƏMİRİNDƏ İSTFADƏ EDİLƏN QUYUDİBİ MÜHƏRRİKİN TƏKMİLLƏŞDİRİLMƏSİ İMKANLARININ TƏDQİQİ

A.P. HƏSƏNOV, İ.Z. ƏHMƏDOV, T.A. QASIMOVA, Ə.N. QURBANOV

Məqalədə quyuların əsaslı təmiri zamanı sement – qum tıxacının təmizlənməsində vintli quyudibi mühərriklərdən geniş istifadə edilir. Əsaslı təmir işlərinin səmərəliyinin yüksəldilməsi məsələlərinin qoyuluşu elmi və iqtisadi cəhətdən əsaslandırılmışdır. Bu mühərriklərin dövretmə klapanlarının işini tədqiq etmək üçün hesablama modelinin sxemi təklif edilmiş və onun parametrlərini təyin etmək üçün riyazi düsturlar alınmışdır. Klapanın işçi orqanı olan yayın yüklənmə sürətinin şərti qiymətində klapanın bağlanmasının zamandan asılı olaraq dəyişmə qanunauyğunluğu müəyyən edilmişdir. Təklif edilən metodika dövretmə sisteminin konstruktiv olaraq təkmilləşdirilməsi işlərində istifadə oluna bilər.

Açar sözlər: quyudibi mühərrik, quyu lüləsi, sement tixacı, klapan, yayitələyici.

Məlum olduğu kimi, sementtökmə işləri başa çatdıqdan sonra quyu lüləsində sement tıxaclarının qalması quyuların əsaslı yeraltı təmiri təcrübəsində tez-tez təsadüf olunur. Habelə yumşaq suxurlardan ibarət və işlənmənin son mərhələlərində olan yataqların istismar prosesində quyularda bərk qum tıxaclarının əmələ qəlməsi də səciyyəvi haldır. Belə hallarda quyu lüləsinin qum –sement tıxaclarından təmizlənməsi üçün mədənlərdə quyudibi mühərriklərin istifadəsi daha münasibdir. Onların tətbiqinin səmərəliliyi təmir işlərinin nəzərə çarpacaq dərəcədə sadələşməsindən, quyuların quyuağzı rotorla, qazıma borusu və əlavə kommunikasiyalarla təchiz edilməsi zərurətinin aradan götürülməsindən ibarətdir. Bununla əlaqədar olaraq, hal-hazirda "Azneft"-İstehsalat Birliyinin demək olar ki, butun nefqazçıxarma idarələrində quyudibi mühərriklər öz təyunatina görə geniş istifadə olunur və bəzi müəssisələrin quyuların əsaslı təmir sexlərində quyudibi mühərriklərin cari təmiri və xidməti də təşkil

edilmişdir. Bu mühərrklərin əsaslı təmiri mərkəzləşdirilmiş qaydada "AzINMAŞ"-kimi tanınan indiki Azərbaycan elmi tədqiqat layihə - konstruktor neft maşınqayirma institutunda (AETL- KNMİ.) aparılır [1,2]. Bu məqsədlə Rusiya Federasiyasindan idxal edillən Д-54, Д-85, Д-88 tipli quyudibi mühərriklərin, həmçinin AETL- KNMİ buraxdığı QVM-90, tipli mühərriklərin sınaqdan və hidravlik təcrübədən çıxarılması üçün stend yaradılmışdır.

Endirmə-qaldırma əməliyyatları zamanı iş yerlərinin çirklənməsinin mümkünlüyünü aradan qaldırmaq məqsədilə mühərriklərin konstruksiyalarında yuyucu boru kəmərinin daxili səthindən boru arxası fəzaya yuyucu mayelərin axınını təmin edən boşaltma klapanı nəzərdə tutulmuşdur. Lakin təcrübə qöstərir ki, bu boşaltma klapanları işdə etibarlı deyil və vaxtından əvvəl sıradan çixir, buna qörə də onlar boşaltma klapanları olmadan buraxılır. Boşaltma klapanlarının olmaması və ya, onların imtina etməsi, quyuların əsaslı təmirinin səmərəliliyinin azalmasına səbəb olaraq aşağıda təsvir olunan mənfi nəticələrə gətirir.

Mühərrik quyuya endirilərkən, alətin normal endirmə rejimi pozulur, yəni yuyucu maye ilə dolmuş quyu lüləsində alətin hərəkəti zamanı endirmə prosesi ləngiyir. Əqər bu zaman quyu süzgəcinin bir hissəsi açıqdırsa, borunun qazıma kəməri kütləsinin yaratdığı izafi təzyiqin hidravlik təsiri altında layın strukturu pozula bilər. İş başa çatdıqdan sonra, yəni sement və qum tıxacı qazıldıqdan sonra, mühərrik qaldırılarkən, boşaltma klapanının konstruksiyası lazimi kipliyi təmin edə bilmır. Bunun nəticəsində yuyucu borunun qaldırılması mayenin sıçraması və iş yerlərinin çirklənməsi şəraitində baş verir. Bu zaman təhlükəsizlik texnikasının tələbləri pozulur, endirmə -qaldırma əməliyyatları zamanı işlərin əmək tutumu və təhlükəsi artır [3,4].

Qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, quyudibi mühərrikin boşaltma klapanlarının təkmilləşdirilməsi və işinin tədqiqi məsələləri aktual olaraq qalır.

Mövcud klapan sistemində yerinə yetirilmiş yeni təcrübə-konstruktor işləri və aparılmış təhlillər nəticəsində boşaltma klapanının işçi orqanının, ardınca isə yay-itələyici cütlüyünün tədqiqi və təkmilləşdirilməsi ücün hesabat modeli təklif olunmuşdur (şək. 1).



Şək. 1. Boşaltma klapanının işçi orqanının hesabat modeli

Hazırkı məqalədə təsvir olunan tədqiqatın məqsədi alınmış qöstəricilər əsasında boşaltma klapanlarının konstruksiyasının daha təkmil modelini yaratmaqdan ibarətdir.

Modelin konstruksiyasının hərəkət prinsipinə əsasən silindrik vintli yay modeli (3) sıxılarkən işləyir. Mühərrikin işə salınması üçün zəruri olan hidravlik qüvvənin təsiri altında itələyici (2) aşağıya doğru yerini dəyişərək yayı sıxır. Bu zaman itələyicinin alt hissəsində yerləşən dəlik (1) aşağıya doğru hərəkət edərək mühərrikin daxili hissəsini boru arxası fəzadan ayırır. Yay kamerasının hermetikliyi kipləşdirici elementlərlə (4) təmin olunur.

Mühərrik quyuya endirilərkən klapan açıq vəziyyətdə olur. Bunun üçün aşağıdakı şərt təmin olunmalıdır :

$$c+f > p+q,$$

klapanın bağlanması üçün isə

$$p+q > f+c$$

şərti zəruridir.

Burada, c- yayın sərtliyi, q- sərbəst düşmə təcili, f- sürtünmə qüvvəsi, p- yayın qüvvəsi.

Quyudibi (sement tıxacı) mənimsənilərkən boru kəmərinin endirilməsi dayandırılır. Sement tıxacının qazılması prosesinin başlanğıcında klapan yerləşən zonada, başqa sözlə H dərinlikdə statik təzyiq aşağıdakı kimi tapılır:

$$P_{st} = 0{,}1H\gamma = 0{,}1\upsilon\gamma T \qquad (1)$$

Yay altı itələyicinin hərəkətinin diferensial tənliyl aşağıdakı kımi yazılır:

$$ml'' = Q - f + 0{,}1\upsilon\gamma T - P \qquad (2)$$

burada: m, Q- müvafiq qətirilmiş kütlə və itələyicinin kütləsi,

l – elastik yayın yığılma hündürlüyü,

f – gövdəylə (5) kipləşdirici elementlərin kontaktından alınan sürtünmə qüvvəsi,

p – yayın qüvvəsi, başqa sözlə itələyici ilə yaya təsir edən qüvvə (quyuya vurulan mayenin təzyiqindən asılıdır),

T – yayın dolaqlarının yerdəyişmə vaxtı,

v – yay sıxılarkən, onun hərəkət edən ucunun yerdəyişmə sürəti..

İtələyici hərəkətə başlamasından əvvəl aşağıdakı şərt qəbul olunmuşdur.

$$T = 0; \quad l = 0; \quad l'' = 0.$$

Tənlik (2)-ni həll edərkən və hesabatları sadələşdirərək, aşağıdakı ifadəni alırıq

$$\ell = \frac{N_0}{g^2}(1 - \cos qT) + \frac{N_1}{q^2}\left[T - \frac{\sin qT}{k}\right] \qquad (3)$$

burada : $N_0 = \dfrac{G-1}{m}$; $N_1 = \dfrac{0{,}1\gamma v}{m}$; $q^2 = \dfrac{l^2}{m}$

I – ətalət momenti;

k – dolağın əyriliyini nəzərə alan əmsal;

Tədricən itələyici aşağıya doğru yerini dəyişərək yayı sıxır. Vurulan suyun hərəkətilə yaranan qüvvə P, elastik yayın əks qüvvəsinə üstün gəlməyə çalışır. Bu andan etibarən yayın deformasiyası başlayır.

Qeyd etmək lazımdır ki, quyudibi mühərriklərin boşaldıcı klapanı təyinatına görə 2-ci sinifə daxildir və $\upsilon \le \upsilon_{kp}$ $\left(\upsilon \setminus \upsilon_{kp} \le 1\right)$ sürətilə dövri olaraq yüklənir. Yayın parametrləri təyin edilərkən dolaqların bir-birinə toxunmasından yaranan kontakt gərginliyini ləğv etmək lazımdır.

Yayın deformasiyası F və yayın qüvvəsi P arasında əlaqə vardır. Yayın P_1, qüvvəsində (ilkin basqı qüvvəsi) ilkin deformasiya F_1, yayın P_2 qüvvəsində işçi deformasiya F_2 baş verir. Maksimal deformasiyada F_3 yayın qüvvəsi P_3 olacaq.

Maksimal buraxılabilən yüklənmə aşağıdakı kimi hesablanır:

$$P = \frac{\pi d^3 \left[\tau\right]}{80 D_{cp} \cdot k} \tag{4}$$

Bir dolağın maksimal buraxıla bilən sıxılması isə aşagıdakı düsturla müəyyən edilir:

$$F = \frac{\pi D^2{}_{cp} \left[\tau\right]}{G d_k} \tag{5}$$

Burada: G – 80 kN/ mm^2-ə bərabər sürüşmə moduludur,

d – yayın telinin diametri,

$\left[\tau\right]$ – burulmada buraxıla bilən maksimal toxunan gərginlik,

D – yayın orta diametri,

$\left[\tau\right]_g$ – işçi gərginlikdə yayın qüvvələri aşağıdakı kimi ifadə olunur:

$$P_1 = \frac{0{,}393 d^3 \left[\tau_2\right]}{k\left(D - d\right)} \tag{6}$$

$$P_2 = \frac{0{,}393 d^3 \left[\tau\right]_2}{k\left(D - d\right)} \tag{7}$$

Dolaqlar toxunanadək sıxıldıqda yayın qüvvəsi asagıdakı kimi hesablanır:

$$P_{3=} = \frac{Gd^3}{8(D-d)^2}(t-d) \qquad (8)$$

Yayın maksimal deformasiyada qüvvəsi aşğıda yazılan düsturlarla tapılır:

$$P_3 = \frac{P_2}{1-\delta}, \qquad \delta = 1 - \frac{P_2}{P_1} \qquad (9)$$

burada : D – yayın xarici diametri,

δ – sıxılan yayın nisbi ətalət araboşluğu,

t – sərbəst vəziyyətdə yayın addımı.

Bu parametr aşağıdakı kimi hesablanır:

$$t = \frac{\pi(D-d)^2\ [\tau]}{Gkd} + d \qquad (10)$$

Maksimal deformasiya (dolaqlar toxunduqda) $Q = \frac{P_3}{c}$ düsturla müəyyən edilir:

burada $c = \frac{P_2 - P_1}{h}$

Maksimal deformasiyada yayın hündürlüyü $H_2 = nd$ kimi hesablanır ki, burada n- işçi dolaqların sayıdır.

Yuxarıda qeyd olunan $\upsilon / \upsilon_{kp} \le 1$ bərabərsizliyindən yayın sıxılmasının böhranlı sürəti υ_{kp} aşağıdakı kimi tapılır:

$$\upsilon_{kp} = \frac{\tau\left[1 - \frac{P_2}{P_1}\right]}{\sqrt{2G_\rho}}, \qquad \sqrt{2G_\rho} = 3{,}58 \qquad (11)$$

burada ρ - materialin sıxlığıdır.

Yay poladlar üçün $\rho = 8 \times 10^{-10}\ N$ /mm^2 olduğunu nəzərə almaqla (11) ifadəsi dəyişərək aşağıdakı kimi yazıla bilər:

$$P_3 = \frac{P_2\ \tau}{\tau - 3{,}58\frac{H}{T}} \qquad (12)$$

Yuxarıda baxılan $\upsilon = \upsilon_{kp}$ şərtini qəbul edərək yüklənmiş itələyicinin təsiri altında yayın mühərrik ucunun hərəkət sürətinin dəyişmə qanunauyğunluğunu və gedişini qrafiklə müəyyən etmək, habelə mühərrikin daxili səthini boru arxası fəzadan ayırmaq məqsədilə klapanın bağlanma vaxtının məqamını qiymətləndirmək olar.



Şək. 2. Müəyyən vaxt ərzində yay quvvəsinin dəyişməsi

Şəkil 2-də müəyyən vaxt ərzində yay quvvəsinin P_3 dəyişməsi $P_3 = f(T)$– aslılığı göstərilmişdir. Habelə qöstərilmişdir ki, vaxt ərzində qüvvənin dəyişməsi səlis olur ki, bu da klapanın işçi orqanının hesabat parametrlərinin seçilməsində metodik yanaşmanın düzgünlüyünü təsdiq edir.

Nəticə. Aparılan tədqiqatların nəticələri göstərir ki, təqdim olunan hesablanma metodikasının quyudibi mühərrikin boşaldıcı klapanının konstruksiyasının təkmilləş-dirilməsi üçün istifadəsi məqsədəuyğundur. Bu isə öz növbəsində aparılan əsaslı təmirlərin ümumiyyətlə, səmərəsinin artırılmasına və ətraf mühitin qorunmasına imkan yarada bilər.

ƏDƏBİYYAT

1. **Гасанов А. П.** Восстановление аварийных скважин. Справочник. – Москва: «Недра», 1983.
2. **Гасанов А. П.** Аварийно-восстановительные работы в нефтяных и газовых скважинах. – Москва: «Недра», 1987.
3. **www.miniq-enc.ru.** Горная энциклопедия. Винтовой забойный двигатель. История, структура, свойства.
4. **www.Derrick.ru.** Винтовые забойные двигатели. Справочное пособие.

ВОЗМОЖНОСТИ УСОВЕРШЕНСТВОВАНИЯ ЗАБОЙНОГО ВИНТОВОГО ДВИГАТЕЛЯ ПРИ РЕМОНТЕ СКВАЖИН

А.П. ГАСАНОВ, И.З. АХМЕДОВ, Т.А. ГАСЫМОВА, А. Н. ГУРБАНОВ

Статья посвящена некоторым вопросам улучшения работы винтовых забойных двигателей при капитальном ремонте скважин. На основе исследования работы переливных клапанов предложена методика расчета и выбора параметров рабочего органа клапана, обеспечивающих надежность и безотказность работы забойного винтового двигателя в целом.

POSSIBILITIES OF IMPROVMENT. OF DOWNHOLE MOTORE USED IN WELLS OVERHANE

A.P. GASANOV, I.Z. AHMADOV, T.A. GASIMOVA, A.N. GURBANOV

Downhole motors of D-54, D-85, D-88 types are most efficient for the overhaul of wells, namely cleaning production casing from cement –sand plugs. These motors are equipped with the overflowing valves. However, these valves often fail. The aim of these valves is to provide overflow of circulation (flush) fluid from the inner space of the string to the annulus. Negative consequences that take place on failures of the overflowing valves are described. Model for calculation and determination of key parameters of valves actuator with the aim of improvement of its design is proposed. It is assumed that the spring of the overflowing valve are of the II class and are loaded periodically with velocity $\upsilon \le \upsilon_{kp}$. Idle mode and regularity of change of the spring velocity under the action of fluid column have been determined graphically. This allows assessing the moment of valve s closure for the isolation of annulus from the inner space of string.

Proposed method can be used for the improvement of design of the overflowing valve.

QABARCIQLI SAYĞACLARIN HƏSSAS ELEMENTİNİN YERLƏŞDİRİLMƏSİNİN NƏZƏRİ TƏDQİQİ

N.H. CAVADOV, S.A. ABDULLAYEV, F.F. QULİYEV,
Ə.M. MEHTİYEV, N.A. ABDURƏHMANOV

Məqalədə qabarcıqlı sayğacdan alınan elektrik siqnallarının dəqiqliyini yüksəltmək üçün həssas elementin yerləşdirilməsinin nəzəri tədqiqi verilmişdir. Göstərilir ki, qabarcıq qopma səthindən həssas elementə qədər olan məsafə qabarcıq cığırının mərkəzindəki təzyiqdən və ölçülən mayenin (qazın) sıxlığından asılıdır. Alınan nəzəri nəticə ilə təcrübi nəticələr müqayisə olunmuşdur. Nəticələrin yaxınlaşması yüksəkdir.

Açar sözlər: qabarcıqlı sayğac, həssas element pisaxımlı maniyə, qabarcıq cığırı.

Mayelərin və qazların həcmi miqdarının və sərfinin qabarcıqlı sayğaclar vasitəsilə ölçülməsi məlumdur [1–3].

Qabarcıqlı sayğacların konstruktiv sxemi şəkil 1-də göstərilmişdir.



Şəkil 1. Qabarcıqlı sayğacın konstruktiv sxemi

1 - pisaxımlı maniə, 2 - qabarcıq, 3 - həssas element, 4 - siqnal çıxartma düyünü.

Maye (qaz) pisaxımlı maniə ilə görüldükdə maniədən sonra təzyiq itkisi baş verir və maneədən qabarcıqlar qopmağa başlayır. Qabarcıqlar maniənin gah bir, gah da digər tərəfindən növbəli şəkildə qopmaya başlayır. Əgər qabarcıq cığırının qarşısına rəqsi hərəkət edə bilən həssas element qoyularsa ona dəyən qabarcıq zərbələrindən o, rəqsi hərəkət edərək siqnal çıxartma düyünündə periodik elektrik gərginliyi yaradır. Bu elektrik gərginliyinin qiyməti axının həcmi miqdar ilə düz mütənsib olar.

Bu sayğacları layihələndirərkən qabarcıqların qopduğu zona ilə həssas element arasındakı məsafə siqnal çıxartma üçün əsas rol oynayır. Bu məsafə haqqında dəqiq məlumat olmazsa etibarlı siqnal almaq mümkün deyil.

Ədəbiyyatların araşdırılması göstərir ki, pisaxımlı maneədən qopan qabarcıqların müqavimət qüvvəsi məlum olmadıqda qabarcıq cığırının hansı məsafəyə qədər davam edəcəyi məlum olmur [4].

Bu məqalədə qabarcıqlı sayğaclarda pisaxımlı maneədən qopan qabarcıq cığırının hansı məsafəyə qədər getməsindən asılı olaraq həssas elementin harda yerləşdirilməsinə baxılmışdır.

Təcrübədə yuxarıda göstərilən məsafəni təyin etmək üçün birinci cihazın üzərində müxtəlif məsafələrdə həssas element yerləşdirməklə təyin edilir.

Məsələnin bu yolla həlli həm vaxt itkisinə, həm də maddi itkiyə səbəb olur.

Qabarcıq cığırının ölçülən mayenin parametrlərindən asılılığını təyin etmək üçün qabarcığın hərəkət tənliyinə nəzər salaq

$$m\frac{dv}{dt} = pS - mg - F_c \qquad (1)$$

burada m - qabarcığın kütləsi,

v - sürəti;

t - hərəkət vaxtıdır;

p - qabarcıq cığırının mərkəzindəki təzyiq;

S - qabarcığın sahəsi;

g - sərbəst düşmə təcili;

F_c - qabarcığın müqavimət qüvvəsidir.

Qəbul edək ki, qabarcığın sürəti düzxətli dəyişir, yəni $v = 0$-dan $V = V_c$, axının saniyədəki şərti sabitdir, qabarcığın təzyiqi qabarcıq cığırının mərkəzindəki təzyiqə bərabərdir.

Qəbul etdiyimiz şərtlər daxilində aşağıdakıları yaza bilərik:

$$V = \frac{V_c}{t_c} t \tag{2}$$

$$m = \frac{pS}{g} \quad , \tag{3}$$

$$F_c = \frac{1}{t_c} \int_0^t \frac{\rho}{2} S V^2 = \frac{1}{3} \cdot \frac{S\rho}{2} V_c^2 \tag{4}$$

burada V_c - qabarcığın cari sürəti,

t_c - cari hərəkət vaxtı;

t - tam hərəkət vaxtı;

ρ - ölçülən mayenin sıxlığıdır.

Sonuncu (2), (3) və (4) tənliklərini (1) tənliyində yazsaq

$$\frac{pS}{g} \cdot \frac{dv}{dt} = pS - \frac{pS}{g} - \frac{1}{3} \cdot \frac{S\rho}{2} V_c^2 \quad , \tag{5}$$

və ya

$$\frac{pS}{g} \cdot \frac{V_c}{t_c} = -\frac{1}{3} \cdot \frac{S\rho}{2} V_c^2 \tag{6}$$

Bu tənliyi həll etsək

$$6p = g t_c \rho V_c \tag{7}$$

alarıq.

Bu tənliyin sağ tərəfini aşağıdakı şəkilə salıb həll etsək

$$6p = -g\frac{dL}{dt}\rho dt = -gL\rho \quad , \tag{8}$$

burada L - qabarcığın getdiyi yolun uzunluğudur.

(8) tənliyindən L -i təyin etsək

$$L = \frac{6p}{\rho g} \tag{9}$$

alarıq.

Bu tənlik qabarcıq qopan zonadakı təzyiq, ölçülən mayenin sıxlığı və qabarcıq qopan zonadan həssas elementin arasındakı məsafənin əlaqəsini aşkarlayır.

Cədvəldə temperaturu $T = 0$-dan 20^0C kimi dəyişən etilen qlikolla aparılmış ilkin sınaqlarda istifadə olunan həssas elementin yerləşdiyi məsafə ilə (9) düsturu ilə aparılmış hesabatın nəticələri müqayisə olunmuşdur.

Cədvəl

$T, {}^0C$	ρ, $\frac{kq}{m^3}$	g, $\frac{m^2}{san}$	p, $\frac{H}{m^2}$	L, m	L_T	$\delta = \frac{L_T - L}{L_T} \cdot 100$, %
0	1,0235	9,81	0,083	0,04959	0,05	0,8
5	1,0224			0,04965		0,7
10	1,0213			0,04970		0,6
15	1,0202			0,04976		0,48
20	1,0191			0,04981		0,38

Cədvəldən görünür ki, hesablama ilə sınaq zamanı istifadə olunan uzunluqlar arasındakı xəta 0,8%-dən çox deyil.

ƏDƏBİYYAT

1. **Pənahov B.M., Denisov O.E., Morduxayev A.İ., Mehtiyev Ə.M., Abdurəhmanov N.Ə.** Qabarcıqlı sərfölçən. Patent İ2008 0102.
2. **Салигов С.Г., Мирзоев А.М., Мехтиев А.М., Абдурахманов Н.А., Мамедов Р.З.** Теоретический анализ работы вихревых расходомеров, основаны на эффекте Ван Карман. Механика Машиностроение, №3. – Баку, 2009.
3. **Панахов Б.М., Мехтиев А.М..** Методика расчета массового расхода и плотности жидкостей газов вихревыми расходомерами с прямолинейными нитями. Труды МНК, посвященной 70-летию академика А.Ш. Мехтиева. – Баку, 20-23 декабря 2004.
4. **Мехтиев А.М.** Теоретические исследования частоты вихреобразования расходомера основанное на эффекте Ван Кармана. Механика Машиностроение, №2. – Баку, 2009.

ТЕОРЕТИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ МЕСТА РАСПОЛОЖЕНИЯ ЧУВСТВИТЕЛЬНОГО ЭЛЕМЕНТА ВИХРЕВОГО СЧЕТЧИКА

Н.Г. ДЖАВАДОВ, С.А. АБДУЛЛАЕВ, Ф.Ф. КУЛИЕВ,
А.М. МЕХТИЕВ, Н.А. АБДУРАХМАНОВ

С целью повышения точности электрического сигнала, полученного от вихревого счетчика, теоретически исследуется место расположения чувствительного элемента. Указывается, что расстояние от начала вихреобразования до чувствительного элемента зависит от давления на зоне вихреобразования и плотности измеряемой жидкости. Полученные результаты сравниваются с практическими, результаты хорошо совпадают.

THE ORETICAL RESEARCH OF THE LOCATION OF THE SENSITIVE ELEMENT THE VORTEX COUNTER

N.H. JAVADOV, S.A. ABDULAYEV, F.F. KULIEV,
A.M. MEHTIEV, H.A. ABDURAHMANOV

For the purpose of increase of accuracy of an electric signal received from the vortex counter the location of a sensitive element theoretically is investigated. It is underlined that distances from the beginning of vortex formation to a sensitive element depends on pressure upon a zone of vortex formation and density of a measured liquid. The received results are compared with practical, results well coincide.

РОЛЬ НЕПОДЕЛЕННЫХ ПАР S ЭЛЕКТРОНОВ В ОБРАЗОВАНИИ КЛАТРАТНЫХ СОЕДИНЕНИЙ С КОМПЛЕКСАМИ СВИНЦА (II) БЕНЗОЙНОЙ КИСЛОТЫ И ЕЕ ПРОИЗВОДНЫХ.

I. СИНТЕЗ КЛАТРАТНЫХ СОЕДИНЕНИЙ НА ОСНОВЕ КОМПЛЕКСНОГО СОЕДИНЕНИЯ БЕНЗОАТА СВИНЦА (II)

Б.Т. УСУБАЛИЕВ

Синтезированы новые клатратное соединения на основе комплекса бензоата свинца (II) – $Pb(C_6H_5COO)_2 \cdot H_2O$. По данным элементного, рентгенографического, ИК-спектроскопического и дериватографического анализов установлены индивидуальность и наличие гостевых молекул, а также изучены процессы термических разложений клатратов – $[Pb(C_6H_5COO)_2 \cdot H_2O.] \cdot 10\ HCOOH$ (I), $[Pb(C_6H_5COO)_2 \cdot H_2O.] \cdot 4\ CH_3COOH$ (II), ИК-спектроскопическим исследованием выявлено, что на спектрах продуктов разложения клатратных соединений отсутствуют полосы поглощения молекулы воды в области 3400-3440 $см^{-1}$.

Ключевые слова: электронная конфигурация, химическая связь, бензойная кислота, комплексные соединения, клатратные соединения.

Двухвалентный ион Pb^{2+} имеет внешнюю электронную конфигурацию $5d^{10}6S^2$, т.е. относится к III категории металлов, которые имеют в комплексах электронную конфигурацию псевдоинертного газа плюс два электрона $(n\text{-}1)d^{10}nS^2$ (где n=4,5 или 6). Эти атомы интересны тем, что у них сферически симметричное распределение d электронов нарушает неподеленные пары S электронов. Они способны образовывать химические связи, используя свои гибридные орбитали, сформированные из подходящих s-, p- и d-орбиталей.

Как известно из литературных данных, в некоторых случаях в образовании координационного полиэдра участвует неподеленная пара электронов атома свинца и, как правило, локализуются 6 s^2 электрона [1-6]. Из-за этого полиэдры приобретают искаженную геометрическую форму. В изученных нами комплексных соединениях свинца с бен-

зойной кислотой и ее производными в образовании координационного полиэдра также участвует неподеленная пара электронов атома свинца, и это приводит к сильному искажению координационного полиэдра и образованию глиноподобных слоистых полимеров [7-13].

В таких структурах легко происходят плоскостные деформации в результате нарушения порядка упаковки слоев (смещение, вращение и смещение с вращением отдельных слоев). В связи с этим мы полагаем, что такие соединения имеют большие возможности образовывать клатраты, в которых в междуслоевом пространстве будут находиться дополнительные нейтральные молекулы различного размера. Также предполагается, что при клатратообразовании общий мотив структуры должен сохраниться, только будет происходить смещение слоев в направления перпендикулярно слоям. При этом увеличиваются межслоевые расстояния в зависимости от размера проникающих молекул.

Настоящая работа посвящена получению и структурно-химическому исследованию клатратных соединений на основе комплексного соединения бензоата свинца с одной молекулой воды. В качестве гостевых молекул выбрали муравьиную и уксусную кислоты.

В структуре комплексного соединения бензоата свинца II – $Pb(C_6H_5COO)_2 \cdot H_2O$ выделяется два типа координирования молекулы бензойной кислоты [14].

Первый тип молекулы представляет собой тридентатный лиганд $З_2$-с [15]. Карбоксильная группа хелатно-мостиковая. Роль мостика выполняет атом O(1), который подходит к симметричному атому свинца на расстоянии 2,83(2)^A (рис.1).

Второй тип молекул бензойной кислоты является бидентатно-мостиковым лигандом типа 2-са [15]. Атом O(4) образует мостик между двумя симметрично связанными атомами свинца.

Как видно из рис.1, атом O(3) в координации Pb не участвует: он связан водородной связью с двумя центро-симметричными связанными молекулами воды H_2O…O(3) 2,66, (10), H_2O…O(3) 2,96(15) Å. В координационную сферу атома свинца входят еще две центросимметричные связанные молекулы воды. Если учесть более слабую связь Pb-O_2 3.19 Å, то координационное число свинца дополнится до восьми. Таким образом, координационный полиэдр свинца – квадратная антипризма.



Рис. 1. Кристаллическая структура бензоата свинца (II) (проекция вдоль [010])

Атомы Pb расположены зигзагообразно вдоль оси «c» и связаны между собой кислородными атомами карбоксильных групп и молекулами воды. Трансляционно-идентичные по оси «a» цепочки сшиваются в двумерные слои, параллельные плоскости (010).

Слои по оси «b» упаковываются в трехмерную структуру слабыми силами взаимодействий между фенильными кольцами, в результате чего образуется полимерная слоистая структура с плоскостью спаянности, перпендикулярной к оси «b». Размещение полимерных слоев хорошо видно на рис.2. Следует подчеркнуть, что объем, приходящий на один атом (10,5) в этой структуре, больше, чем в других структурах свинца с производными бензойной кислоты.

Таким образом, как видно из вышеизложенного, комплексное соединение бензоата свинца по своему структурному расположению обещает быть хорошей основой для клатратообразования.



Рис. 2. Кристаллическая структура бензоата свинца (II) (проекция вдоль [011])

ЭКСПЕРИМЕНТАЛЬНАЯ ЧАСТЬ. С целью получения клатратных соединений комплексное соединение бензоата свинца (II) - $Pb(C_6H_5COO)_2 \cdot H_2O$ было растворено в муравьиной и уксусной кислотах с легким нагреванием. После полного растворения растворы отфильтровывались и оставлялись на кристаллизацию. Через несколько суток из растворов выпадали прозрачные кристаллы. Кристаллы сушились при комнатной температуре на фильтровальной бумаге. Сразу после сушки были сняты дифрактограммы, термограмма и ИК-спектр этих кристаллов, также был проведен элементный анализ. Результаты элементных анализов монокристаллов клатратных соединений приведены в табл. 1.

Рентгенограммы полученных соединений сняли на дифрактометре ДРОН-3 (λCuK_α – излучение, сканирование $\theta/2\theta$, $2\theta=50^0$).

ИК-спектры клатратных соединений сняты на спектрофотометре UR-20 в области частот 4000-400 $см^{-1}$. Образцы готовили в виде суспензий в вазелиновом масле.

Дериватограммы сняли на Q – Дериватографе фирмы МОМ (Венгрия) с электронными регистрирующими устройствами на воздухе. Навеска составляла 100 мг, чувствительность съемки 500, скорость нагрева 10^0/мин.

Таблица 1.

Результаты элементных анализов клатратных соединений

№	Мол. вес	Элементы	Найдено %	Вычислено, %
I	927,19	Pb	22,28	22,35
		C	30,43	31,06
		H	3,73	3,45
		O	43,56	43,14
II	707,19	Pb	29,19	29,30
		C	36,75	37,33
		H	4,14	3,96
		O	29,92	29,41

ОБСУЖДЕНИЕ РЕЗУЛЬТАТОВ. Рентгенограммы комплексного соединения и клатратных соединений представлены на рис.3; а, б, в. Сравнение дифрактограммы комплексного и клатратных соединений показывает, что интенсивность интенсивных пиков под углом 6,00; 11,47; 17,20; 14,47; 13,33; 29,00; 35,00; 41,00; $47,27^0$ резко уменьшается и смешается в сторону уменьшение углов. Самые интенсивные первые четыре пика у клатратов I и II появляются под углами 5,33; 11,13; $13,33^0$ и 5,00; 11,00; $16,33^0$ соответственно. Это указывает на то, что один параметр элементарной ячейки в зависимости от размеров гостевых молекул увеличивается. По нашему мнению, это будет тот параметр, который перпендикулярен слоям. В этом направлении увеличение параметра объясняется тем, что нейтральные молекулы - муравьиная или уксусная кислоты, наполняя межслоевые пространства, смещают слои, то есть происходит набухание, как у глин, в результате чего получаются так называемые глиноподобные клатратные соединения.

Из сравнения рентгенограмм двух клатратных соединений выясняется, что в рентгенограмме первого клатрата все максимумы имеются, а в рентгенограмме второго клатрата только разница в том, что они смещаются в сторону уменьшения углов в клатрате II.

Это говорит о том, что параметры элементарной ячейки II клатрата больше, чем I. Таким образом, по результатам рентгенографического анализа можно заключить, что полученные соединения являются клатратами.

В диапазоне 3440-3400 см$^{-1}$ в спектрах комплекса и клатратных соединений наблюдается широкая полоса, принадлежащая кристаллизационной воде [16, 17]. Выше было отмечено, что кристаллы клатратных соединений через некоторое время потеряют прозрачность, но форма кристаллов сохраняется. ИК-спектроскопические исследования непрозрачных кристаллов показывают, что в спектрах все полосы поглощения остаются, только широкие полосы в области 3440-3400 см$^{-1}$ исчезают. Это объясняется тем, что молекулы воды со временем вытесняются из кристаллов молекулами гостя. В этом случае можно предполагать два варианта. Первый: вытесненную молекулу воды занимают атомы кислорода, который не входит в координационную сферу свинца, и образуется их водородная связь с водой (рис.1).

В этом случае возможны два типа координирования карбоксильной группы: -З$_2$(З$_2$-с) и 4$_3$(с-4$_3$-с) [15].



1



2

$R = C_6H_5^{\cdot}$

Оба типа координирования карбоксильной группы часто встречаются в карбоксилатных комплексах свинца (II) [8, 10].

При этом полимерная цепочка для I и II может быть изображена так, как на рис.7 а и б соответственно.

В первом случае координационное число свинца уменьшается до 6, а во втором случае координационное число остается по-прежнему 7. Следует отметить, что оба координационных числа характерны для свинца [8, 11].

Второй вариант: одна из гостевых молекул, вытесняя из координационной сферы металла молекулы воды, занимает ее место. Эта молекула образует водородные связи с некоординированными молекулами муравьиной или уксусной кислоты.

В спектрах клатратных соединений I и II в области 1600; 1315 и 1595; 1355 $см^{-1}$ наблюдаются четкие полосы, отвечающие асимметричным (ν_{as}) и симметричным (ν_s) валентным колебаниям карбоксильных групп, подтверждающие образование прочной Pb-O связи. Разность частот (ν_{as}-ν_s) соответственно составляет 190 и 180$см^{-1}$ [17]. Одновременно в спектрах наблюдаются полосы поглощения в областях 1720-1700; 1425$см^{-1}$ и 1720-1700; 1435 $см^{-1}$, что доказывает вхождение нейтральных молекул муравьиной и уксусной кислоты в состав соединений.

Термограммы указанных клатратных соединений I и II соответственно представлены на рис.3 и рис.4, а также представлена термограмма комплексного соединения, на основе которого получены клатратные соединения I и II (рис.5).

Разложение клатратных соединений начинается в температурных интервалах 55-140 и 31-110^{0}C с соответствующими максимумами 81 и 62^{0}C удалением одной молекулы воды.

Из рис.5 видно, что дегидратация комплексного соединения подпадает под температурный интервал 80-145^{0}C и сопровождается эндотермическим эффектом с максимумом110^{0}C. Как видно, в комплексном соединении вначале температура удаления молекулы воды гораздо выше, чем у клатратных соединений. Это объясняется тем, что гостевые молекулы всегда стремятся к координации металла и тем самым ускоряется процесс удаления воды. После удаления молекулы воды промежуточные продукты устойчивы до температур 200 и 185^{0}C. В температурных интервалах 200-242 (T_{max} 208^{0}C) и 185-225^{0}C (T_{max} 208^{0}C) соответственно начинается удаление гостевых молекул – муравьиной и уксусной кислоты. Сначала из клатрата с большой скоростью удаляется одна молекула муравьиной и 0,5 моль уксусной кислоты и связи с этим на кривых ТГ не наблюдается сту-



Рис. 3. Дифрактограммы исходного комплекса и клатратных соединений I, II на его основе



Рис. 4. Термограмма клатратного соединения
$[Pb(C_6H_5COO)_2 H_2O]10HCOOH$



Рис. 5. Термограмма клатратного соединения
$[Pb(C_6H_5COO)_2H_2O]4CH_3COOH$



Рис. 6. Термограмма комплексного соединения
$Pb(C_6H_5COO)_2 \cdot H_2O$



б



а

Рис. 7 (а, б). Предполагаемые координирования карбоксильных групп после дегидратации клатратных соединений

пеней, показывающих устойчивость промежуточных соединений. Далее в температурных интервалах 242–358^{0}C и 225–342^{0}C (с максимумами 280; 300 и 262; 283^{0}C) удаляются остальные молекулы муравьиной и уксусной кислоты. В этих температурных интервалах эндотермические эффекты перекрываются последующими экзотермическими эффектами выгорания, поэтому на кривых ДТА четкие эндоэффекты не наблюдаются.

